

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 20 (23.907)

*1 fevral 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərində səfərdə olub. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Dövlətimizin başçısı həmin gün Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışında iştirak edib.

Yanvarın 30-da 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzinin açılışı olub. Prezident İlham Əliyev 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzini işə salıb.

Yanvarın 30-da Gəncədə "Azərbaycan Dəmir Yolları" QSC-nin lokomotiv deposu istismara verilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib, deponu işə salıb. Dövlətimizin başçısı səfər çərçivəsində Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə də tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə Memorial Kompleksinin təməlini qoyub. Dövlətimizin başçısı kompleksin yaradılacağı ərazi ilə tanış olub, kompleks barədə ölkə başçısına məlumat verilib. Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumu nəticəsində həlak olan dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstəsi qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərinə səfəri çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə – AZƏRTAC-a müsahibə verib.





# Naxçıvanın inkişaf modeli

## Qədim yurdun müasir siması, modern quruculuğu, səmərəli islahatları



*...Təyyarə eniş zolağına doğru yaxınlaşdıqca illüminatordan bəyaza bürünmüş ecazkar şəhəri, sevimli diyarın inzibati mərkəzini seyr edirik.*

*Kiçik Qafqaz sıra dağları, möhtəşəm Gəmiqaya, buludlara dikilən Qapıcıq zirvəsi, mistik Əshabi-Kəhf, heyrətamiz Haçadağ, qarlı Nəhəcir dağı bütün əzəməti ilə göz qamaşdırır. Bu müqəddəs ucalığın qoynunda füsunkar təbiətin, mərd camaatın, qürurlu tariximizin alınmaz, əyilməz məskəni yerləşir...*

*Nuh Peyğəmbərin gəmisinin ilk dayanacağı, həm də Qədim Türk-Oğuz yurdu, Dədə-Qorqud binəsi, İslam mədəniyyətinin sütunlarından biri...*

*Əmir Teymurdan başlayaraq neçə-neçə dünya fatehinə baş əyməyən, son onilliklərboyu isə rəzil düşmənə qan udduran iftixar mənbəyimiz...*

*5,5 min kvadratkilometrlik ərazi, 462 min insan...*

*Üç tərəfdən düşmənlə sərhəd, Ana Vətəndən uzaq düşmə nisgili...*

*Amma daim yüksəlişdə olan, torpağının altı tarixin, üstü isə inkişafın izlərini yaşadan əziz yurdumuz...*

*Mistika ilə gerçəkliyi, ənənələrlə modernliyi, əzmkarlıqla nailiyyəti, zəhmətlə nəticəni, gedilən yolun uğur hesabatı ilə sabahın düzgün hədəflərini ləyaqətlə birləşdirən göz bəbəyimiz...*

*Nuhçıxandayıq, Nəqşi-Cahandayıq, Naxçıvandayıq, muxtar respublikadayıq...*

### *Qafqazın lider ölkəsinin lider bölgəsi*

Naxçıvan məfhumunun doğurduğu təəssürat hər kəsdə dəyişməzdir, bu, məhz tarixlə bağlı olur. Qədim dövrlərin örnək olaylarına, orta əsrlərin qəhrəmanlıq hadisələrinə, müasir çağımızın isə ən mühüm dövlətçilik və müstəqillik illərinə müəlliflik edən bu yurd və onun insanları daim tarixin gərdişini dəyişdirib. Amma müsbətə doğru dəyişdirib!

Tarixə nəzər salıb, fikirlərimizi faktlaşdırmağa, əslində, nə hacət?! Bunları bilməyənmi var?!

Amma, bəlkə, bəzilərinin hələ də bilmədikləri var. Məsələn, Naxçıvan müstəqillik illərində inkişaf dinamikasına görə Azərbaycanda ən öncül region olub. Hələ 10 il əvvəl Prezident cənab İlham Əliyev bunu rəsmən bəyan etmişdi: ***"Muxtar respublika inkişafa görə Azərbaycanda liderdir".*** Ötən il isə dövlət başçısı bu mövzuya yenidən qayıtdı və dedi: ***"Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordçu bölgədir".***

"Lider region", "rekordçu bölgə" ifadələri, əlbəttə ki, iltifat sözləri deyil, konkret faktlara, real göstəricilərə və elə adi gözlə görüləsi genişmiqyaslı dəyişikliklərə əsaslanan Ali Qiymətdir!

Blokadanın min cür ağırlığına, fəsadlarına baxmayaraq, gərgin əmək və misilsiz əzmkarlığın təcəssümü olan fədakarlığa, Vətən naminə çəkilən zəhmətə verilən Prezident Dəyəridir!

Dünyanın Qafqazın lider ölkəsi kimi tanıdığı bir məmləkətin lider bölgəsi olmaq nə deməkdir? Yəni Naxçıvan artıq bütün Qafqazın ən inkişaf etmiş regionudur!

Onilliklər öncə dövlətçilik və müstəqillik istiqamətində ən mühüm başlanğıclara, rekordlara müəlliflik edən Naxçıvan indi sosial-iqtisadi sahədə artıq Qafqaz miqyasında rekordlara imza atır!

Rəqəmlər, adətən, insanları, oxucuları yorur. Amma nəzərə alaq ki, rəqəmlər təkzibedilməz faktlardır və bu faktlar görün nələri göstərir: Müstəqillik illərində muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 69 dəfə, sənaye məhsulunun həcmi 117 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 15 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 141 dəfə, əsas kapitala yönəldilən vəsaitlər 348 dəfə, nəqliyyat sektorunda yük daşınması 27 dəfə, pərakəndə əmtəə dövriyyəsi 49 dəfə, əhali gəlirləri isə 61 dəfə artıb...

Diqqət edin: faizlə yox, dəfələrlə!

Digər göstəriciləri bir kənara qoyub, yalnız birinə baxaq: Naxçıvan sakinlərinin gəlirlərinin 61 dəfə artması onların yaşam səviyyəsinin 61 dəfə yüksəlməsi deməkdir!

### *Vaxtilə çıraq işığında oturan, üşüyən Naxçıvan indi enerji ixracatçısıdır*

Ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvandakı fəaliyyəti Azərbaycan tarixinin dönüş mərhələsi və qürur mənbəyidir. Bu dövrə daim təkrar-təkrar qayıdır, onu ən dərin incəliklərinə qədər araşdırmağa ehtiyac duyuruq. Bu illərlə bağlı xatirələrdə həmişə vurğulanan bir məqam olub: blokadanın ilk illərində Naxçıvan enerji təminatından məhrum olmuşdu, kəndlərdəki, şəhərlərdəki mənzillər, o cümlədən muxtar respublika rəhbərinin kabineti isidilmirdi. Ulu öndəri ziyarət etmiş çoxsaylı insanlar qeyd edirlər ki, görkəmli dövlət xadimi Heydər Əliyevin kabinetində paltoda oturmağa məcbur olurmuşlar. Ümummilli liderin masasındakı çıraq (indi o, Naxçıvandakı Heydər Əliyev Muzeyində sərgilənir) isə həm otağı işıqlandırarmış, həm də onun cüzi istisində əllər isidilərmiş...

Prezident cənab İlham Əliyev də o tarixi günlərin şahidlərindəndir: ***"Yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi"...***

Bəli, dahi şəxsiyyət Heydər Əliyev bu vəziyyətdə olan Naxçıvana rəhbərliyə gəlmişdi. İndi isə...

Naxçıvan Muxtar Respublikası enerji ixracatçısıdır!

Nəinki bütün şəhər və kəndlər işıqla 100 faiz təmin olunur, hətta bunu xaricə ixrac edirlər!

Əgər 2003-cü ildə muxtar respublikada cəmi 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, ötən ildə bu göstərici 11-ə çatdırılıb!

Naxçıvan uğur göstəricilərində modern innovasiyalara əsaslanmasa, Prezidentin təbirincə desək, rekordsmenlik göstərməsə, Naxçıvan olmaz axı: elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpa olunan enerji mənbələri hesabına ödənilir! Bu isə hətta inkişaf etmiş ölkələr üçün çox nadir hal hesab edilir.

Müstəqillik illərində sənaye məhsulunun həcminin 117 dəfə artmasını yuxarıda qeyd etdik, bundan əlavə, indiyədək yüzlərlə sənaye müəssisəsi də istifadəyə verilib. Tarixən aqrar bölgə olan Naxçıvanın bu gün güclü potensiallı sənaye-aqrar regionuna çevrilməsinin əsas mahiyyəti də məhz enerji təhlükəsizliyinin təmin olunmasıdır. Bu amil muxtar respublikada sənayenin inkişafına möhkəm zəmin yaradıb.

"Güclü sənaye müasir və qüdrətli iqtisadiyyatın açarıdır" fikri Naxçıvan nümunəsində ən real təsdiqini tapır. Fəaliyyəti dayandırılmış sənaye müəssisələrinin bərpa edilməsi və yeni istehsal sahələrinin yaradılması nəticəsində yeni sənaye məhsullarının istehsalına başlanılıb. İndi Naxçıvanda avtomobildən tutmuş hər cür tikinti materialına qədər, ərzaqdan geyimədək yüzlərlə məhsul istehsal olunur və xaricə satılır.

Çıraqdan enerji ixracatına qədər keçilən yol elə əsl inkişafdır...

Bu uğurlar silsiləsinə muxtar respublikanın 100 faiz qazlaşdırılmasını, ən ucqar dağ kəndində belə, insanların istiliklə bağlı ən kiçik problem yaşamamasını da əlavə edək...

"Ağıllı kənd" modeli ilə onlarla yaşayış məntəqəsinin formalaşdırıldığını, kəndlərin artıq qəsəbə yox, elə müasir şəhər formatında inkişafını, kənddə hələ adi məktəbləri demirik, musiqi məktəblərinin belə, üçmərtəbəli binalarda yerləşdiyini və bütün otaqların uşaq-yeniyetmələrlə dolu olduğunu və bu xüsusda xeyli əlavə faktları da uğurlar sırasına qataq...

Özü də hələ də blokadanın məhrumiyyətlərini, çətinliklərini yaşayan, üç tərəfdən düşmənlə əhatələnən Naxçıvanda...

### *Naxçıvanda Prezident cənab İlham Əliyevin quruculuq izləri*

Muxtar respublikada əldə olunan nailiyyətlər birmənalı olaraq Heydər Əliyev kursunun uğurla gerçəkləşməsinin, ulu öndərin bu bölgə ilə bağlı arzularının, hədəflərinin, vəsiyyətlərinin layiqincə həyata keçirilməsinin təzahürüdür.

Eyni zamanda Prezident cənab İlham Əliyevin siyasətinin, qayğısının, şəxsi nəzarətinin təntənəsidir. Dövlət başçısı kimi bölgəyə 15 dəfə səfər edən Prezident burada 100-dən artıq təhsil, səhiyyə, idman və mədəniyyət müəssisəsinin, istehsal sahəsi və hərbi təyinatlı obyektlərin açılışını edib. Ölkə rəhbərinin himayəsi, tapşırığı, tövsiyəsi ilə ərsəyə gələn obyektlərin sayı isə minlərlədir.

Muxtar respublikada son illərdə 232 elm və təhsil ocağı, 642 mədəniyyət, səhiyyə, idman obyekti inşa olunub, 109 körpü, 352 inzibati bina, 61 nasos stansiyası, 328 subartezian quyusu tikilib. 98 min 775 iş yeri açılıb.

*Ardı 2-ci səhifədə*

1346 istehsal və xidmət sahəsi yaradılıb. Bu müddətdə Naxçıvanın yalnız inzibati mərkəzindən kəndlərinə doğru deyil, həm də elə kəndlərdə küçələrarası yollar belə, tam asfaltlaşdırılıb. 4 min kilometrdən artıq yol isə yenidən qurulub.

Muxtar respublikada bütün istiqamətlər üzrə iqtisadi sabitlik qazanılıb, daxili imkanlardan səmərəli istifadə edilib, müdafiə, ərzaq və enerji təhlükəsizliyi təmin olunub, sosial layihələrin əhatə dairəsi genişləndirilib. Xüsusi mülkiyyətin, kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılıb, sahibkarlara göstərilən dövlət maliyyə dəstəyinin həcmi ildən-ilə artırılıb, bu sahədə fəaliyyətə süni müdaxilələrin aradan qaldırılması, vergi və gömrük güzəştlərinin tətbiqi özəl sektorun fəaliyyətinin inkişafına müsbət təsirini göstərib. Ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi yüksəlib.

Ötən dövrdə kənd təsərrüfatı məhsullarının həcminin 15 dəfə artması ərzaq təhlükəsizliyinin təmininə xidmət edib. Aqrar sahəyə diqqət və qayğının bir təzahürü də yüzlərlə ailə təsərrüfatlarının formalaşdırılmasıdır ki, bu da özünüməşğulluğa mühüm töhfə verir. Əvvəllər zəruri ərzaq və sənaye məhsullarına olan tələbatını tamamilə idxal hesabına ödəyən muxtar respublikada bu gün 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir, ixrac potensialı getdikcə artır.

İndi muxtar respublikada 16 min hektardan artıq sahədə meşəsalma və meşəbərpa işləri aparılır. Naxçıvanda indi elə bir şəhər, qəsəbə, kənd tapmaq olmaz ki, orada yaşıllıqlar, gülkarlıqlar, meyvə bağları salınmasın. Əgər ötən əsrin 90-cı illərində yaşıllıqların ümumi sahəsi 0,6 faiz idisə, hazırda 20 faizdən artıqdır.

İnkişafın modern istiqamətlərindən biri də rabitə və yeni texnologiyalar sahəsidir. Naxçıvanda müasir rabitə sistemi yaradılıb, ən ucqar dağ kəndlərində genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilib. Bu gün muxtar respublikada tam kəsintisiz telekommunikasiya sistemi mövcuddur, qlobal internet sisteminə dördtərəfli çıxış var, bütün yaşayış məntəqələrinin genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətlərindən istifadəsi reallaşdırılıb.

### *Davamlı inkişafın sürətli mərhələsi*

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf göstəriciləri 2021-ci ildə də mühüm nailiyyətləri əks etdirir. Statistikaya baxaq və nəzərə alaq ki, bu göstəricilər, sadəcə, rəqəmlər toplusu deyil, böyük zəhmətin, fədakarlığın, düzgün yolun ürəkaçan nəticələridir.

Ötən il ümumi daxili məhsul istehsalı 3 milyard 16 milyon 315 min manat, bir il öncəki göstəricidən 2,4 faiz çox olub. Hər bir nəfərə düşən ümumi daxili məhsul əvvəlki ilə nisbətən 3,4 faiz artaraq 6525 manat, ortaaylıq əməkhaqqının məbləği isə 548,8 manat təşkil edib. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27 faizlə sənaye sahəsi tutur və maddi istehsalın payı 59 faizdir. Ötən il muxtar respublikada bir il öncəki göstəricini 1,7 faiz üstələyən həcmdə – 1 milyard 69 milyon 655 min 700 manat dəyərində sənaye məhsulu istehsal olunub. Bunda özəl bölmənin payı 92,3 faizdir. Sənayenin inkişafı məqsədilə təsərrüfat subyektlərinə 2021-ci ildə 11 milyon 276 min manat kredit verilib. 194 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, yaxud yaradılması davam etdirilib. İndi Naxçıvanda 384 növdə məhsul istehsal olunur.

2021-ci ildə muxtar respublikada sahibkarlara verilən 38 milyon manatdan artıq kreditin 13 milyon 875 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 24 milyon 161 min 100 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunub. 52 hüquqi və 2389 fiziki şəxs qeydiyyata alınıb. 2021-ci ildə bir il öncəyə nisbətən 5,3 faiz çox, yəni 573 milyon 380 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Muxtar respublikada alternativ enerji istehsalı sahələrinin yaradılması istiqamətində 5 meqavat gücündə Şərur Günəş Elektrik Stansiyasının və Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyasının tikintisi başa çatdırılıb, Şərur rayonunda Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilir.

Muxtar respublikada inkişafı xarakterizə edən əsas cəhətlərdən biri də tikinti-quruculuq işlərinin həcminin ilbəil artmasıdır. Hər il yaşayış məntəqələrində yeni inzibati binaların və sosial obyektlərin istifadəyə verilməsi, yeni yolların çəkilməsi əhalinin rahat yaşayışına xidmət edir. 2021-ci ildə muxtar respublikada 355 sosial və inzibati obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, 149 obyektdə tikinti və yenidənqurma işləri davam etdirilib. Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib və ötən il əhalinin şəxsi vəsaiti hesabına 376 min 661 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib.

Tikintidən söz düşmüşkən, Türkiyənin İqdır vilayətinə keçərkən Sədərək Gömrük Sərhəd-Buraxılış məntəqəsinin yeni inşa olunan binasının əzəməti, tətbiq edilən texniki innovasiyalar, xidmət keyfiyyətinin yüksəkliyi növbəti təəccübümüzə səbəb oldu. Buraxılış məntəqəsi, ümumilikdə, Qafqazda son nəsil gömrük nəzarəti, müşahidə texnologiyaları ilə təmin edilən ən müasir infrastrukturdur. Yəni bu da növbəti rekord! Ümumi sahəsi 104 min kvadratmetr olan kompleksdə sürətli keçid üçün şərait, yüklərin rəsmiləşdirilməsi, yoxlama-baxış sistemləri, giriş və çıxış istiqamətlərinin çoxsaylı hərəkət zolaqları, ən nəhayət, əhaliyə operativ və maneəsiz xidmət, əslində, bütün gömrük-buraxılış məntəqələri üçün örnək olmalıdır. Amma bunu da yetərli saymayan Naxçıvan gömrükçüləri xidməti daha da asanlaşdırmaq üçün buraxılış məntəqəsində yük nəqliyyat vasitələrinin keçidinin və gömrük rəsmiləşməsinin sürətlənməsinə dəstək məqsədilə Sədərək Ticarətin Asanlaşması Mərkəzinin tikintisinə başlayıblar. Ötən il isə büdcə öhdəliyini 108 faiz yerinə yetiriblər.



Bir məqamı unutmayaq, ağır blokada və çətin pandemiya dövründə artımın, hətta 0,1 faizlik göstəricisi belə, əsl qəhrəmanlıq nümunəsi sayıla bilər, sayılmalıdır da...

### *Qədim ənənələrin möhtəşəm davamı*

Çoxəsrlik təhsil, elm ənənələrinə malik Naxçıvanda bu istiqamətlər indi, sözün əsl mənasında, intibah dövrünü yaşayır. Ötən dövrdə müasir informasiya texnologiyaları ilə təmin olunmuş 200-dən artıq məktəb binası istifadəyə verilib, orta ixtisas və ali təhsil müəssisələri üçün yeni tədris korpusları tikilib, peşə məktəbləri yaradılıb. Muxtar respublikanın ümumtəhsil məktəblərində oxuyan 53 mindən çox şagirdin təhsili ilə 7257 müəllim məşğul olur. Ötən tədris ilində məzunlardan ali təhsil müəssisələrinə qəbul göstəricisi 73 faiz təşkil edib. 261 məzun 500-dən yuxarı bal toplayıb, 3-ü Prezident təqaüdünə layiq görülüb. Təhsil müəssisələrində sürətli internetə çıxışı olan 5700-dən artıq kompüter və 650-dən artıq elektron lövhə quraşdırılıb, tələbə və müəllimlər üçün vahid geyim forması tətbiq edilib.

İstedadı ilə fərqlənən şagirdlərin adı Gənc İstedadların "Qızıl kitabı"na yazılır və Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünü alırlar. 103 ümumtəhsil məktəblərində 22 mindən çox şagird STEAM təhsilinə cəlb olunur. Məktəblərdə 205 idman klubu yaradılıb. Son iki ildə 2000-dən çox müəllim müxtəlif ixtisasartırma kurslarına və təlimlərə gedib.

6 elmi-tədqiqat institutunu birləşdirən AMEA Naxçıvan Bölməsi apardığı tədqiqatlar, araşdırmalarla həm elmə töhfələr verir, həm mükəmməl alim formalaşdırma məktəbinə çevrilir. Naxçıvan ali təhsilinin flaqmanı olan 55 yaşlı Dövlət Universitetinin nailiyyətləri isə o qədər çox və genişdir ki, həm də nüfuzu ölkə miqyasını aşaraq qlobal məkana keçdiyindən, barəsində məxsusi yazı yazılmağı haqq edir...

Ən nəhayət, son illərdə Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı, Avropa Gənclər paytaxtı missiyalarını da şərəflə yerinə yetirib.

### *Böyük Zəfərdə Naxçıvanın şanlı imzası*

İkiəsrlik münaqişəyə, 32 illik müharibəyə son qoyan Vətən savaşı Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələrimizin və xalqımızın sarsılmaz vəhdəti nəticəsində qələbə ilə yekunlaşdı. Zəfərin gerçəkləşməsi üçün bütün bölgələrin sakinləri, bütün xalqların təmsilçiləri sıx səfərbər oldular və arzulanan nəticəni əldə etdilər.

Zəfərdə Naxçıvanın da, naxçıvanlıların da əzəmətli imzası, mühüm töhfəsi, böyük qurbanları oldu. Onilliklərboyu rəzil düşmənə qarşı cəsarətlə döyüşən, muxtar respublikanın ərazisini ləyaqətlə qoruyan, Günnüt zəfərinə imza atan Əlahiddə Ümumqoşun Ordu Vətən müharibəsində də əsl rəşadət və vətənpərvərlik nümunəsi göstərdi, yeni şərəf missiyasını Qarabağda yazdı. Oktyabrın 10-da Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları Qarabağa gələrək ertəsi gündən etibarən Hadrut istiqamətində kəskin zərbələri ilə güclü erməni müdafiəsini yardılar, Şuşayadək rəşadətlə döyüşərək əsl qəhrəmanlıq örnəyi yaratdılar. Ən çətin döyüşlərdə, alınmaz mövqelərdə, keçilməz sədlərdə aslanlar kimi vuruşdular, gülləleri tükənəndə bıçaqla, süngüləri qırılanda yalın əlləri ilə savaşdılar. Tarix və xalqımız Naxçıvan igidlərinin bu ali, səmimi, böyük Qarabağ sevgisini, Azərbaycan vurğunluğunu əsla unutmayacaq!

Hər gün həm qələbə, həm də şəhid xəbəri alan naxçıvanlıların sevinc və qüssə gözyaşları bir-birinə qarışmışdı. Onlarla şəhidin istisnasız olaraq hər biri Naxçıvan aeroportunda muxtar respublika rəhbərinin öncüllüyündə minlərlə insan tərəfindən qarşılandı, öz şəhərinə, kəndinə, son əbədiyyət məkanına böyük ehtiramla yola salındı. İndi onların ailələri, eləcə də savaşda yaralananlar, müharibə iştirakçıları davamlı qayğı, diqqətlə əhatələniblər, mənzillərlə, avtomobillərlə, işlə təmin olunurlar, sosial ehtiyacları dərhal həllini tapır.

Postsavaş dövründə Ali Baş Komandan tərəfindən Silahlı Qüvvələrdə aparılan yeni islahat mərhələsində Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu yenə də ön sıradadır. Ən müasir silah və texnikalarla təminat, şəxsi heyətin peşəkarlığı dəfələrlə artırılıb. Müstəqillik illərində tikilən, yenidən qurulan 306 müxtəlif təyinatlı hərbi obyekt indi daha müasir tələblərə uyğun formalaşdırılır.

### *Naxçıvan gerçəklikləri*

Naxçıvanda "ASAN xidmət" Mərkəzinin tikintisi də davam etdirilir. Amma Naxçıvanda ucqar dağ kəndindən inzibati şəhər mərkəzinədək xidmətlər zatən uzun illərdir, asanlaşdırılıb. Prezidentin tələbləri əsasında Naxçıvanda bütün dövlət xidməti əhali üçün tam əlçatan, ən əsası isə effektiv nəticə verən fəaliyyətə çevrilib.

Bunlar Naxçıvanda aparılan sistemli islahatların yalnız bir istiqamətidir. Necə ki müstəqilliyin ilk illərində ümummilli liderimiz Heydər Əliyevin şəxsində Naxçıvan Azərbaycanın əsl dövlətçilik məktəbi olaraq dövlət quruculuğunun bütün sahələri üzrə ilk islahatlara başlamışdı, eyni əzm, eyni yol, eyni hədəflə bu islahatlar indi də aparılır və ulu öndərin irsinə, Prezidentin siyasətinə mühüm töhfə kimi səciyyələnir.

Bəzən Naxçıvan reallıqlarını ölkə miqyasında təhrif etməyə də cəhd göstərilir. Məsələn, açıq danışaq, Naxçıvanda güclü intizam və nəzarətin olması barədə sosial şəbəkə dedi-qoduları baş alıb gedir...

Əslində, bəlkə də, haqlıdırlar, Naxçıvanda güclü nəzarət var! Amma bu nəzarət vətəndaşın özü-özünə, hərəkətinə, davranışına, hüquqi və mənəvi öhdəliklərinə şəxsi nəzarətidir!

Nəzarətin rəsmi təminatçısı olan hüquq-mühafizə orqanlarının isə nə avtomobilləri, nə də ki özləri küçələrdə gözə dəyir. Sanki muxtar respublikada polis deyiləcək bir kəs yoxdur. Bunun hansısa fəsad yarada biləcəyi ehtimalı ilə maraqlanırıq. Bu məqsədlə də kriminal xronikaya nəzər salırıq. Naxçıvanın, nəhayət ki, öndə olmadığı, əksinə, ən geridə qaldığı bir sahəni də tapdıq: cinayətkarlıq! İctimai qaydalar və əhali kriminal durumun sabitliyini artıq rəsmi təsir olmadan, məhz özü tənzimləyir!

Kəskin qarın yağdığı vədədə Naxçıvanı şəhərdən kəndlərədək gəzdik, sübh tezdən kişilər əllərində belləri ilə evlərinin, küçələrinin, iş yerlərinin qarşısında qarı kürüyürdülər. Tam könüllü! Amma, əlbəttə ki, 20 il öncə bu qaydalar könüllü icra edilmirdi, necə ki Azərbaycanın dörd bir yanında bu ənənəni hələ də yaratmaq mümkün deyil! Yaxud yas və toy mərasimləri məsələsi, hər şənbə keçirilən iməciliklər... Naxçıvanda bunun kimi onlarla prosesin uğurlu həllini camaat özü tapıb və onu qətiyyətlə də qoruyurlar!

Minillik tarixi olan Naxçıvan, 98 yaşlı muxtar respublika böyük sürətlə, müasir zövqlə, qətiyyətli təşəbbüskarlıq və səmimi təəssübkeşliklə, düzgün istiqamətdə hər gün yeniləşir, uğuruna uğur qatır.

Yeni Naxçıvan indi bütün vüsəti, cəlalı ilə tarixin ən qüdrətli Azərbaycanının və Prezident cənab İlham Əliyevin möhtəşəm əsərlərindən birinə çevrilib!

Uğurların, əslində, kiçik qismindən bəhs etdik. Onların sayı, miqyası, əhatəsi, təsiri o qədər böyük və genişdir ki, tam halında qəzet səhifəsində ümumiləşdirmək mümkünsüzdür. Növbəti saylarımızda Naxçıvandakı ordu quruculuğundan, ixrac potensialından, elm, təhsil, mədəniyyət, mətbuat mənzərəsindən, dağ kəndlərindən, turizm potensialından və digər mövzulardan silsilə məqalələrimiz dərc olunacaq...

### *Naxçıvanın uğur formulu*

Səfərdən qayıtdıqdan sonra qəzetimizin dostu AMEA-nın vitse-prezidenti, həm də naxçıvanlıların ölkə parlamentində təmsilçisi olan İsa Həbibbəyli ilə təəssüratlarımızı bölüşürdük. "Muxtar respublikanın uğur formulunun əsl zəmini nədir" sualıma akademikin cavabı konkret idi: "Prezident cənab İlham Əliyevin regionun geosiyasi vəziyyətini, xüsusi çətinliklərini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasına daim böyük diqqət və qayğı göstərməsi buradakı inkişafı ardıcıl olaraq stimullaşdırır. Naxçıvandakı böyük və hərtərəfli inkişaf həm də yorulmaz fəaliyyətin və məqsədyönlü idarəetmənin qanunauyğun nəticəsidir. Muxtar respublika Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Azərbaycan dövlətçiliyində xüsusi tarixi hadisə olan Heydər Əliyev-İlham Əliyev dövlətçilik siyasətinə sədaqəti, mükəmməl idarəetmə təcrübəsinə malik olması, düşünülmüş quruculuq siyasəti və əzmi qədim diyarın müasir inkişafında mühüm rol oynayır. Eyni zamanda Naxçıvan əhalisinin dövlətçilik və quruculuq proseslərində yorulmadan fəal iştirakı paralel şəkildə davam etdirməsi də Naxçıvanın yüksəlişini təmin edir".

Həqiqətən də, Azərbaycan Prezidentinin qayğısı – muxtar respublika rəhbərliyinin uğurlu fəaliyyəti – əhalinin zəhmətkeş fədakarlığı, məhz bu üç faktorun vəhdəti Yeni Naxçıvanın təməlidir!

Həm də inkişafın Naxçıvan modelinin davamlı təminatçısıdır!

İnkişafa görə Azərbaycanda lider, Qafqazda rekordçu olan Naxçıvan bütün nailiyyətləri, yüksəliş göstəriciləri ilə, əslində, Heydər Əliyevin irsinə, əbədiyaşar xatirəsinə ucalan möhtəşəm monumental abidədir!

Naxçıvan həyata keçirdiyi islahatların səmərəliliyinə, dövlət siyasətinin uğurlu gedişinə görə həm də İlham Əliyev idarəçilik kursuna və siyasətinə mükəmməl töhfə nümunəsidir!

Əsas odur ki, bu nümunəni hamı görür, dəyərləndirir, ən ali qiyməti isə Lider verir. Prezident cənab İlham Əliyevin Naxçıvan ictimaiyyətinə xitabən söylədiyi bu fikirlər yüksək dəyərdir, ancaq ən əsası USTAD DƏRSİdir: ***"Siz, Ali Məclisin Sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün bu uğurlara nail olmusunuz. Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Bu, Naxçıvanda var və məni çox sevindirir".***

*Həqiqətən də, fəaliyyətdə uğuru əldə etməyin, xalqa ləyaqətli xidmətin sadə yolu var: ulu öndər Heydər Əliyev örnəyinə, Prezident cənab İlham Əliyev nümunəsinə tapınmaq, istinad etmək!..*

*Dövlətimizin başçısı özünün idarə etdiyi avtomobillə Zəngəzur dəhlizindən Naxçıvana gələcəyi günə isə çox az qalıb...*

*Bu, Naxçıvanın yeni dirçəliş mərhələsinin, yeni inkişaf salnaməsinin başlanğıcı olacaq!*

**İxtiyar HÜSEYNLİ**
**Bakı-Naxçıvan-Bakı**
**"Azərbaycan" qəzeti, 29 yanvar 2022-ci il**

## Muzey ziyarətləri davam edir



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi davam edir.*

Yanvarın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Naxçıvan şəhərində yerləşən Yusif Küseyir oğlu türbəsində olublar.

Ekskursiya çərçivəsində qonaqlara bildirilib ki, Yusif Küseyir oğlu türbəsi Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən 1162-ci ildə Naxçıvan şəhərinin cənub-şərq tərəfində inşa edilmişdir. Abidə yeraltı sərdabədən və yerüstü türbədən ibarətdir. Daxildən və xaricdən səkkizguşəli şəkildə ucaldılan türbə piramida şəkilli günbəzlə örtülmüşdür. Yusif Küseyir oğlu türbəsi Azərbaycanın qülləvarı türbələri içərisində yeganə abidədir ki, üst piramida örtüyü zəmanəmizədək tamamilə salamat vəziyyətdə gəlib çatmışdır. Bununla belə, türbə 2020-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xüsusi göstərişi ilə əsaslı şəkildə yenidən bərpa edilmişdir.

Məlumat verilib ki, türbənin bütün səkkiz səthi müxtəlifşəkilli həndəsi ornamentlə bəzənib. Bu ornamentlər kiçik kərpiclərdən quraşdırılıb, sonra gəc məhlulu ilə tavalar şəklində bərkidilərək səthlərin üzərində möhkəmləndirilib. Türbənin çatmatağ şəkilli giriş qapısı üzərində haşiyələr formasında verilmiş həmin hissə çıxıntılar vasitəsilə bir portal şəklini alıb. Türbənin rəis, xoca Yusif Küseyir oğlu üçün hicri 557-ci ildə, yəni miladi 1162-ci ildə tikildiyini göstərən kitabə bu səthin yuxarı hissəsində yerləşdirilib. Bununla yanaşı, türbənin səthlərindən yuxarı hissə qurşaq şəklində ayrılıb və burada da kitabə yerləşdirilib. Kufi xətlə işlənmiş bu kitabənin giriş qapısından sol tərəfdəki hissəsində memarın adı yazılıb: "Naxçıvanlı memar Əcəmi Əbubəkr oğlu". Yusif Küseyir oğlu türbəsi həcmi etibarilə bir o qədər böyük tikinti olmasa da, memarlıq bəzəyi sadə olsa da, öz ümumi kompozisiyasının aydınlığı, hissələrinin mütənasibliyi etibarilə və eləcə də inşaat işlərinin diqqətlə aparılması cəhətdən gözəl bir memarlıq abidəsidir.

Səkkiz yüz illik yaşı olan abidə Naxçıvanın mərkəzində öz əzəməti ilə onu ziyarət edən turistlərin və qonaqların marağına səbəb olur.

Qeyd edək ki, həmin gün Nazirlər Kabinetinin əməkdaşları Heydər Əliyev Muzeyində, Ali Məhkəmə, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşdırılmış məhkəmələrdə çalışanlar Naxçıvan Dövlət Tarix Muzeyində, Daxili İşlər Nazirliyinin kollektivi Ədəbiyyat Muzeyində, Naxçıvan Muxtar Respublikası Prokrorluğu, Hərbi Prokrorluq və Naxçıvan Şəhər Prokrorluğunun əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Ədliyyə Nazirliyi və Penitensiar Xidmətin Aparatının kollektivi Naxçıvan Dövlət Xalça Muzeyində, Fövqəladə Hallar Nazirliyi və struktur qurumlarında çalışanlar "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olublar. Dövlət Gömrük Komitəsinin kollektivi Cəmşid Naxçıvanski Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Aparatının əməkdaşları Bəhruz Kəngərli Muzeyini, Maliyyə Nazirliyinin kollektivi Xatirə Muzeyini, İqtisadiyyat Nazirliyində çalışanlar Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və struktur qurumlarında fəaliyyət göstərənlər Cəlil Məmmədquluzadənin ev-muzeyini ziyarət ediblər. Kənd Təsərrüfatı Nazirliyinin kollektivi, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasında, Rabitə və Yeni Texnologiyalar Nazirliyi və struktur qurumlarının əməkdaşları Naxçıvan Biznes Mərkəzində, Səhiyyə Nazirliyinin əməkdaşları Qarabağlar Türbə Kompleksində, Təhsil Nazirliyinin kollektivi Milli Dəyərlər Muzeyində, Mədəniyyət Nazirliyi əməkdaşları Yusif Küseyir oğlu türbəsində, Gənclər və İdman Nazirliyinin əməkdaşları Duz Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivi Nəbatat bağında olublar.

**Məcid RƏŞADƏTOĞLU**

## Naxçıvan Qarnizonu Qoşunlarında 2021-ci tədris ilinin nəticələri ilə bağlı yekun müşavirə keçirilib



***2021-ci tədris ilini uğurla başa vuran Naxçıvan Qarnizonu Qoşunlarında 2022-ci yeni tədris ilinə hazırlıq planına uyğun olaraq müxtəlif ixtisaslar üzrə toplantılar keçirilib. Komandir heyətinin bilik və bacarıqlarının, nəzəri və praktik vərdişlərinin təkmilləşdirildiyi toplantılara müxtəlifixtisaslı və kateqoriyalı komandirlərlə yanaşı, komandir müavinləri də cəlb edilib. Toplantı iştirakçılarından ümumqoşun, ixtisas və fiziki hazırlıqdan məqbullar götürülüb. 2022-ci tədris ilinə hazırlıq tədbirləri çərçivəsində birləşmə və hissələrdə şəxsi heyətə sıra baxışı keçirilib, bölmələrin maddi tədris bazaları və tam təchizatı yoxlanılıb.***

Toplantılar başa çatdıqdan sonra 2021-ci tədris ilinin nəticələri ilə bağlı yekun müşavirə keçirilib. Müşavirədə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və ordu quruculuğundan bəhs edən "Ordumuz qürurumuzdur" adlı film nümayiş etdirilib.

Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayev 2021-ci tədris ilində həyata keçirilmiş tədbirləri təhlil edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yola saldığımız 2021-ci il ölkəmizin tarixində bu sahədə də mühüm yeniliklərlə yadda qaldı, Zəfər Gününün birinci ildönümünü təntənə ilə qeyd etdik və qalib xalq olaraq bir daha qürur hissi keçirdik. Ötən il mayın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodrom kompleksi və Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının açılışını etməsi, burada yaradılan şəraiti və eləcə də Vətən müharibəsi zamanı Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının göstərdikləri şücaəti yüksək qiymətləndirməsi 2021-ci ilin yaddaqalan hadisələrindəndir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə Naxçıvan Qarnizonu Qoşunlarının döyüş potensialı, imkan və qabiliyyəti daha da artırılıb, birləşmə və hissələrin müasir silah və texnikalarla təmin olunmasına xüsusi diqqət yetirilib. Ötən il ərzində hərbi infrastrukturun yenilənməsi istiqamətində tədbirlərin uğurla davam etdirilməsi və yüksək dağlıq şəraitdə yerləşən hərbi hissələr də daxil olmaqla yeni hərbi obyektlərin istifadəyə verilməsi müdafiə qüdrəti durmadan artan muxtar respublikamızda ordu quruculuğu sahəsində görülən işlərin məntiqi davamıdır. Ötən il həyata keçirilən tədbirlər sırasında Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasının (həkim-uçuş komissiyasının) fəaliyyətə başlaması və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində Hərbi həkim ixtisasının yaradılması mühüm yer tutur.

Azərbaycan-Türkiyə dostluq əlaqələrindən və hərbi əməkdaşlığından danışan Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayev ötən ilin iyun ayında Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanları ilə birgə taktiki-xüsusi təlimin keçirildiyini diqqətə çatdırıb. Təlimi izləyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Respublikasında pilotsuz uçuş aparatı sistemləri kursunu müvəffəqiyyətlə bitirən zabit və gizir heyəti ilə görüşüb, "BAYRAQDAR-TB2" silahlı pilotsuz uçuş aparatının praktik uçuşlarının idarə edilməsini izləyib, Döyüşü İdarəetmə Mərkəzi və Coğrafi Analiz Sisteminin imkanları ilə tanış olub.

Müşavirədə Əlahiddə Ümumqoşun Ordu komandanının birinci müavini-qərargah rəisi, general-leytenant Fazil Ağalarov məruzə edərək ötən il həyata keçirilən Qars şəhərində və Naxçıvanda keçirilmiş birgə təlimlərdə də birləşmə və hissələrin şəxsi heyətinin yüksək peşəkarlıq və əzmkarlıq nümayiş etdirdiyini vurğulayıb, "Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı" haqqında ətraflı məlumat verib.

Məruzə ətrafında müzakirələr zamanı Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandiri, general-mayor Səlim Niftəliyev, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası komandirinin birinci müavini-qərargah rəisi, polkovnik Muxtar Həmzəyev və Əlahiddə Ümumqoşun Ordu komandanının müavinləri 2021-ci tədris ilində görülmüş işlər və 2022-ci tədris ilində qarşıda duran vəzifələrlə bağlı məruzə və təkliflərlə çıxış ediblər.

Sonda döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələr əldə etmiş bir qrup hərbi qulluqçuya müxtəlif adda medallar təqdim olunub.

**Nəriman NƏCƏFOV**

***AMEA Naxçıvan Bölməsində Gənc alim və mütəxəssislər şurasının gələcək fəaliyyəti və nəzərdə tutulan işlərlə bağlı iclas olub.***

## Gənc alim və mütəxəssislər şurasının gələcək fəaliyyəti və nəzərdə tutulan işlər təhlil olunub



Bölmənin Rəyasət Heyətinin 29 noyabr 2021-ci il tarixli Qərarı ilə yeni tərkibdə təsdiq olunan şura üzvləri bir araya gələrək qarşıya qoyulan məqsəd və vəzifələrin həlli, gənc tədqiqatçıların səmərəli fəaliyyətinin təşkili üçün görülməsi nəzərdə tutulan işləri müzakirə ediblər.

Gənc alim və mütəxəssislər şurasının sədri, Batabat Astrofizika Rəsədxanasının Səma cisimlərinin mövqe müşahidələri şöbəsinin elmi işçisi Ruslan Məmmədov çıxış edib. 2022-ci ildə yerinə yetirilməsi nəzərdə tutulan işlərlə bağlı Tədbirlər Planının hazırlandığını söyləyən tədqiqatçı bildirib ki, il ərzində gənc alim və mütəxəssislərin iştirakı ilə beynəlxalq, respublika və bölmə əhəmiyyətli elmi tədbirlərin, maarifləndirmə seminarları, anım, yubiley və mükafatlandırma tədbirlərinin keçirilməsi, gənclərin asudə vaxtının səmərəli təşkili, elmi əsərlərin nəşri, eləcə də bölmədə qazanılan elmi nailiyyətlərin təbliği ilə əlaqədar müxtəlif tədbir və fəaliyyət növlərinin təşkili planlaşdırılır. Qeyd olunan işlərdə şurada təmsil olunan 41 üzvün aktiv iştirakı nəzərdə tutulub. Daha sonra idarə heyəti üzvlərinin irəli sürdükləri bəzi təkliflər dəyərləndirilib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev şuranın fəaliyyət planı ilə tanış olub, planın uğurlu icrası üçün tapşırıq və tövsiyələr verib. Bölmə rəhbəri bildirib ki, Gənc alim və mütəxəssislər şurasının işi burada təmsil olunan hər bir gəncin elmi və ictimai fəallığının artırılmasında, lazımi bacarıqlara yiyələnməsində böyük önəmə malikdir.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Uşaq bağçalarına dərsliklər verilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin müdirləri, tərbiyəçi-müəllimləri və metodistləri ilə görüş keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsil sahəsində yaradılmış şəraitdən və göstərilən dövlət qayğısından danışmışdır. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2021-ci il 22 dekabr tarixli Sərəncamı ilə məktəbəqədər təhsil müəssisələri Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir.

Bildirilmişdir ki, məktəbəqədər təhsil müəssisələrində uşaqlarla aparılan işin keyfiyyətinin yaxşılaşdırılması üçün kadr potensialının düzgün formalaşdırılması, eləcə də tərbiyəçilərin metodik hazırlığının müasir tələblərə cavab verməsi vacibdir. Bu baxımdan "Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nda edilmiş dəyişikliklərə əsasən 2022-ci ildən etibarən məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllim, musiqi rəhbəri, tibb bacısı vəzifələrinə işə qəbul müsabiqə yolu ilə həyata keçiriləcəkdir. Məktəbəqədər təhsil müəssisələrində fəaliyyət göstərən digər texniki heyətin və dayələrin peşə hazırlığı kurslarına cəlb olunması istiqamətində də zəruri işlər görülür. Hazırda ilk mərhələ olaraq məktəbəqədər təhsil müəssisələrində işləyən 20 aşbaz və 20 dayə Naxçıvan Şəhər Peşə Liseyində peşə kurslarına cəlb edilmişdir.

Bununla yanaşı, şəhər və rayon təhsil şöbələrində məktəbəqədər təhsil üzrə metodistlər müəyyənləşdirilmişdir ki, bu da məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinə nəzarətin təmin olunmasına, həmçinin pedaqoji kadrlara metodik köməkliyin göstərilməsinə öz töhfəsini verəcəkdir. Nazir qeyd etmişdir ki, nazirliyin tabeliyinə verilmiş 19 məktəbəqədər təhsil müəssisəsində sistemli işin təmin edilməsi məqsədilə həmin təhsil müəssisələrinin nizamnaməsi, pedaqoji şurası haqqında əsasnaməsi yenidən işlənərək təsdiq olunmuşdur.

Vurğulanmışdır ki, məktəbəqədər təhsil müəssisələrində 189 qrupda 2891 uşaq vardır. Onlardan da 505-i məktəbəhazırlıq qruplarında təhsil alır. Bu qruplarda təhsil alan uşaqları təhsil standartları əsasında məktəb təliminə hazırlamaq məqsədilə tədris proqramı hazırlanmış və dərsliklər ayrılmışdır. Təhsil naziri məktəbəqədər təhsil müəssisələrinin rəhbərlərinə uşaqlarla işin təhsilin dövlət standartları və məzmunu əsasında qurulması, məktəbəhazırlıq qruplarında tədrisin dərsliklər və tədris proqramı əsasında həyata keçirilməsi, kadrların ixtisasartırma və yenidənhazırlanma kursuna cəlb edilməsi və uşaqların qəbulunun nizamnaməyə uyğun həyata keçirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Sonra Naxçıvan Şəhər Təhsil Şöbəsinin metodik kabinet müdiri Gülxarə Tarverdiyeva, nazirliyin əməkdaşlarından Ayşənur Salmanlı və Sahil Əlizadə çıxış etmişlər.

Sonda fəaliyyətin düzgün qurulması və kargüzarlıq işlərinin təlimata uyğun aparılması üçün əmr və pedaqoji şuranın protokolu kitabları, "Məktəbəqədər təhsil müəssisələrinin pedaqoji şuraları haqqında Əsasnamə", yeni təsdiq edilmiş nizamnamələr və məktəbəhazırlıq qrupları üçün hər birindən 505 olmaqla, 4 hissəli 2020 dərslik məktəbəqədər təhsil müəssisələrinə təqdim olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Komissiyanın 2021-ci ilin yekunları ilə bağlı iclası keçirilib



***Dünən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilmişdir.***

İclası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın sədri Ramilə Seyidova açaraq bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası istiqamətində görülən tədbirlərin nəticəsidir ki, 2021-2022-ci tədris ilində, ümumilikdə, ümumtəhsil məktəblərində müvafiq kateqoriyadan olan 992, Distant Tədris Mərkəzində 3-ü birinci sinifdə olmaqla, 15, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 7, məktəbdənkənar müəssisələrin dərnəklərində 169, şahmat məktəblərində 60, idman məktəblərində 166, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində 80 sağlamlıq imkanları məhdud uşaq təhsil alır. 23 uşaq peşə məktəblərinə cəlb edilmiş, məktəbəqədər təhsil müəssisələrində 22, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində isə 8 uşaq təlim-tərbiyə alır. Ümumtəhsil məktəblərini bitirən sağlamlıq imkanları məhdud uşaqlardan 2 nəfəri orta ixtisas təhsili müəssisəsinə, 14 nəfəri isə ali təhsil müəssisələrinə qəbul olmuşdur.

Vurğulanmışdır ki, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Defektoloji bölməsinin təlim məşğələlərinə 85, kinect oyunlara 27, musiqi terapiyasına 37, psixoloji dəstək xidmətinə 63, əmək terapiyasına 35 uşaq cəlb edilmişdir.

2021-ci il ərzində sağlamlıq imkanları məhdud 1918 uşağa sosial müavinətlər ödənilmiş, müvafiq kateqoriyadan olan 171 uşaqla reabilitasiya tədbirləri aparılmış, 86 uşaq texniki reabilitasiya və digər köməkçi vasitələrlə təmin edilmiş, 68 nəfərə isə protez-ortopedik xidmətlər göstərilmişdir. Həmçinin Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 279 uşağın müalicəsi təşkil olunmuş, 73 nəfərin müalicəsi göndəriş vasitəsilə həyata keçirilmişdir.

Qeyd olunmuşdur ki, 2021-ci il ərzində Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 3955 uşaq haqqında fərdi məlumatlar daxil edilmiş, bankdakı siyahıdakı uşaqların sayı 36569 nəfərə çatmışdır. Hesabat dövrü ərzində müxtəlif tədbirlər keçirilmiş, aid dövlət orqanları tərəfindən 279 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilmiş, 15 sentyabr – Bilik Günü ilə əlaqədar xüsusi kateqoriyadan olan 499 uşaq məktəbli paltarı, dərs ləvazimatları və 492 uşaq isə qış geyimi ilə təmin olunmuşdur.

Ramilə Seyidova bildirmişdir ki, muxtar respublikada uşaqların sayı 165740 nəfərdir. 2021-ci il ərzində doğulan uşaqların sayı isə 4014-dür. Yeni doğulan uşaqlardan 2714 nəfərin muxtar respublikanın tibb müəssisələrində dünyaya göz açması və onlarla aparılan peyvəndləmə işi barədə məlumat verən komissiya sədri onu da diqqətə çatdırmışdır ki, 2021-2022-ci tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərində 53028 şagird təhsil alır ki, bunlardan da 25652-si qızdır. Tədris ilində ümumtəhsil məktəblərinin I siniflərində 2513 qız olmaqla, 5060 şagird təhsil alır. 2020-2021-ci tədris ilində ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1621-i ali təhsil müəssisələrinə, 342-si orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş və ali məktəblərə qəbul olunan 261 nəfəri 500-700 arası bal toplamışdır ki, bunlardan da 155 nəfəri qızdır. Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 124 nəfəri isə ali hərbi məktəbə daxil olmuşdur.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının 2021-ci ilin yekunları və 2022-ci ildə qarşıda duran vəzifələrlə bağlı iclası keçirilib.*

## Ötən ilin yekunları müzakirə olunub



İclasda çıxış edən Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Ramil Hacı bildirib ki, muxtar respublikamızda idman və idmançılara dövlət qayğısı ən yüksək səviyyədədir. Naxçıvan idmanının maddi-texniki imkanları sayəsində yeniyetmə və gənclərin bu sahəyə marağı günü-gündən artmaqdadır.

Vurğulanıb ki, muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarından biri də 2002-ci ildə yaradılan Voleybol Federasiyasıdır. Naxçıvan şəhəri və bölgələrdə federasiyanın bölmə və qrupları fəaliyyət göstərir. Həmin bölmələrdə, ümumilikdə, 315 qrup üzrə 4469 yeniyetmə və gənc idmanın bu növü ilə məşğul olur. Əminlik ifadə olunub ki, nazirliklə federasiyanın birgə və məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqlar yerinə yetiriləcək, bu sahənin inkişafı yolunda yeni uğurlar əldə olunacaq.

Voleybol Federasiyasının sədri Mənşur Gülməmmədli çıxışında qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə yaradılan idman federasiyaları, eləcə də yeni tikilən və ya əsaslı təmir olunan idman obyektləri idmanın inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir. 20 il bundan əvvəl – 2002-ci ildə yaradılan Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyası tərəfindən ötən müddət ərzində voleybol idman növünü inkişaf etdirmək, kütləviliyinə nail olmaq sahəsində bir sıra işlər görülüb.

Diqqətə çatdırılıb ki, federasiya 2021-ci ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman və Təhsil nazirlikləri, həmçinin yerlərdə fəaliyyət göstərən Voleybol Federasiyasının bölmələri, idman idarələri və təhsil şöbələri ilə birlikdə 4 muxtar respublika, 16 rayon, 2 Naxçıvan şəhər birinciliyi, 21 yoldaşlıq görüşü keçirib. Ümumilikdə isə federasiya 43 idman tədbiri təşkil edib.

Çıxış edənlər yaradılan hərtərəfli şəraitə, göstərilən qayğıya görə idmançılar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonra Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev federasiyanın ötənilki fəaliyyəti barədə ətraflı məlumat verib.

**✍ Ceyhun MƏMMƏDOV**

*Xalq təqvimi*

## Kiçik çillənin soyuğu, təndirə qatar toyuğu

Xalqımız qış dövrünü xalq təqviminə uyğun olaraq "çillə" adı ilə üç yerə bölmüşdür. Çillə "çehil" sözündəndir, mənası "qırx" deməkdir. Xalq arasında ağırlıq anlamında başa düşülür. Çillə dərd, kəramət, xəstəlik mənasında qəbul edildiyindən onun girməsi dərdin, çətinliyin gəldiyinə işarədir. Böyük çillə – 40 gün (21 dekabr-30 yanvar), Kiçik çillə – 20 gün (31 yanvar-19 fevral), ala çillə və ya ala çolpav (Boz ay da deyilir) isə bir ay (20 fevral-20 mart) olur. El arasında bu üç çillə – üç bacı, daha çox Böyük və Kiçik çillələrə bağlı olaraq böyük və kiçik bacı adlandırılırlar. El-oba arasında bu iki bacı arasında deyilmiş bir söyləmə vardır.

*Rəvayət.* Böyük çillə ömrünü başa vurub geri qayıdanda Kiçik çillə ilə qarşılaşır. Kiçik çillə Böyük çillədən soruşur: – Nə etdin? Böyük çillə cavab verir ki, tayaları yarıladım, qovurma küpəsinin başını yendirdim, qalaqları sökdürdüm. Kiçik çillə cavab verir: "Mən gedib unluqları, ot tayalarını yox edəcəyəm, qalaqları yandırıb göyə sovuracağam, gəlinlərin əlini xəmir təknəsində donduracağam. Böyük çillə deyir: "Heç nə edə bilməyəcəksən, çünki ömrün azdır, qabağı yazdır".

Xalq arasında iki çillənin bir-birini əvəz etməsi "təhvil-təslim dövrü" adlanır. Ordubad və Culfa bölgələrində əhali qışın ən qorxulu dövrünü "cahar-cahar" adlanan dövr hesab edir ki, bu da dörd gün Böyük çillədən, dörd gün isə Kiçik çillədən götürülür. Xalq meteorologiyasına görə, Böyük çillənin son, Kiçik çillənin isə ilk dörd günü qışın ən sərt günləridir. Culfa bölgəsindən topladığımız etnoqrafik çöl materiallarına görə, bu bölgədə Böyük çillə qurtarıb, yerini Kiçik çilləyə verdiyi dövrdə ("cahar-cahar" adlanan dövr nəzərdə tutulur) "çillə kəsdi" oyunu və ya şənliyi keçirilirdi. Oyun zamanı qardan heyvan fiqurları düzəldib, onun ətrafına yığışar, şənlik edərdilər. Məqsəd qışdan qorxmamaq, qışa sinə gərməkdir.

Tədqiqatçı-alim Bəhlul Abdullayev yazır ki, adamlar bir müsibət, bəla ilə üzləşdikdə ondan xilas olmaq, yaxa qurtarmaq üçün xüsusi ayin icra edərdilər ki, elə bu da "çillə kəsmək" adlanırdı. Kiçik çillə daha çox şaxtalı keçdiyinə görə bu müddətə "qışın oğlan çağı" da deyilir. Kiçik çillənin şaxtalı, boranlı olmasını "Kiçik çillənin soyuğu, təndirə qatar toyuğu" və ya "kiçik qardaş xovlu olar" kimi el deyimlərində də görürük:

*Kiçik çillə, vay çillə,*
*Qarlı, dumanlı çillə,*
*Gəbə, kilim toxuduq,*
*Cəhrəmizdə var çillə.*

Deyilənə görə, Kiçik çillə daxil olduğu kimi, çıxanda da havada bir dəyişiklik yaradır. Lakin ömrünü başa vurarkən Kiçik çillə haqqında deyərlər ki, "ömrünə bir şey qalmayıb, heç nə edə bilməz" və ya "ömrün azdır, qabağı yazdır".

Kiçik çillənin adı ilə bağlı xalqımız bir söz də qoşubdur:

*Kiçik çillə*
*Boyu bir belə*
*Hikkəsi iri belə...*
*Gəlişi oldu hayınan*
*Gedişi oldu vayınan.*

Ədəbiyyat materiallarına əsaslanaraq demək olar ki, Novruz bayramından əlli gün qabaq, Böyük çillənin axırı odla əlaqəli olaraq Səddə bayramı keçirilirdi. Bunu Nizami Gəncəvinin "İsgəndərnamə" poemasında da görürük.

Etnoqrafik çöl materiallarına görə, xalq təqviminə uyğun olaraq Böyük çillənin sonlarına "qurdun insana yerikləyən dövrü" də deyilmişdir. Bu da onunla əlaqəlidir ki, ilin bu dövründə qurd (canavar) ac qaldığı üçün insanlara da hücum edir. El təqvimində qışın bərk şaxtalı günlərinə, Böyük çillənin sonu və Kiçik çillənin əvvəllərinə həm də "Qışın qulun (atın balası) salması" dövrü deyilir.

Araşdırmalardan məlum olmuşdur ki, Ordubadda Böyük çillə ilə Kiçik çillənin arasındakı "təhvil-təslim" dövründə və ya Böyük çillə və ya Ulu çillə qurtarıb yerini Kiçik çilləyə verən günü "Çoban bayramı" və ya "Saya gəzmə" adlı mərasim təşkil edərdilər. Mənbələrin verdiyi məlumata görə, bayramı keçirməkdə əsas məqsəd yer ruhlarını razı salıb, döl bərəkətini artırmaq və heyvanları sağlam vəziyyətdə yaza çıxartmaq idi. Eyni zamanda bu tarix maldarlar üçün yeni bir ilin başlanğıcı kimi də qəbul edilirdi.

Onu da qeyd edək ki, Kiçik çillənin onuncu günü, yəni fevral ayının 9-da Naxçıvanda xalq arasında "Xıdır Nəbi" adlanan mərasim qeyd olunur ki, bu bayram da qış tədarüklərinin tükəndiyi vaxt Xızır Peyğəmbərin yardıma çağırılması ilə bağlı mərasimdir.

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

## Gənc partiya üzvləri arasında futzal birinciliyi



2 fevral – Gənclər Günü münasibətilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının gənc fəalları arasında futzal üzrə muxtar respublika birinciliyi keçirilib. İlham Əliyev adına Olimpiya İdman Kompleksində reallaşan yarışda şəhər və rayonları təmsil edən 8 komanda qələbə uğrunda mübarizə aparıb.

Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi və Futbol Federasiyası tərəfindən birgə təşkil olunan yarış partiya fəallarının asudə vaxtının səmərəli təşkili, sağlamlığın təbliği və futzal idman növünə olan marağın artırılması məqsədilə keçirilib.

Nəticələrə gəlincə, "Naxçıvan" və "Culfa" arasında keçirilən üçüncü yer uğrunda görüşdə paytaxt təmsilçiləri 10:1 hesablı qələbə qazanıblar. Həlledici final matçında isə "Şərur" və "Ordubad" komandaları meydanda olub. Maraqlı mübarizə şəraitində keçən oyun şərurluların 7:4 hesablı üstünlüyü ilə başa çatıb. Beləliklə, yarışın qalibi adını "Şərur" qazanıb. "Ordubad" və "Culfa" müvafiq olaraq ikinci, üçüncü sıralarda qərarlaşıblar.

Komandalara diplom, kubok və hədiyyələr verilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə ədliyyə orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqəyə yerli icra və probasiya qurumlarında 9 vakant icra məmuru vəzifəsi (vəzifə kodu: 960000) çıxarılmışdır.

İcra məmuru vəzifəsinin tutulması üçün ali hüquq təhsilli, 30 yaşınadək Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 1 fevral-1 mart 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında (www.dim.nmr.az) "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməli və aşağıdakı sənədlərin skan olunmuş surətlərini "şəxsi kabinet"ə yükləməlidirlər:

*1. Şəxsiyyət vəsiqəsi*
*2. Ali təhsil haqqında sənədlər*
*3. Əmək kitabçası (olduğu təqdirdə)*
*4. Hərbi bilet*
*5. 3x4 santimetr ölçüdə fotoşəkil (ağ fonda).*

Xarici ali təhsil müəssisələrinin məzunları təhsil sənədlərinin Azərbaycan Respublikasının ərazisində tanınması və ekvivalentliyinə dair şəhadətnamənin əslini və notarial qaydada təsdiq olunmuş surətini Dövlət İmtahan Mərkəzinə təqdim etməlidirlər.

Namizədlər elektron ərizəni təsdiq etmək üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət İmtahan Mərkəzininə təqdim edilməlidir.

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, tibbi rəyə əsasən fiziki və ya əqli qüsurlarına görə işləməyə qadir olmayan, qanunla müəyyən edilmiş həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar, məhkəmə, prokurorluq, ədliyyə, digər hüquq mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər işə qəbul edilmirlər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

*Maraqlananlar Mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dim@nmr.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.*

***İtmişdir***

Şərur rayonunun Axura kəndində yaşamış Sadiqov Məmməd Cabbar oğlunun adına olan JN-283A inventar nömrəli 10203018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Naxışnərgiz kəndində yaşamış Cabbarov Şəmsəddin İbrahim oğlunun adına olan 692 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 86**